İmam Əbu Bəkr Əhməd ibn İbrahim əl-İsməili
(vəfatı: hicri 371-ci il)

# ƏHLİ-SÜNNƏTİN ETİQADI

Tərcümə və qeydlər:

*Əbu Zeyd Həbibli*

Redaktə:

*Fərhad Adayev*

﴿فَٱعۡلَمۡ أَنَّهُۥ لَآ إِلَٰهَ إِلَّا ٱللَّهُ﴾
Tovhid.info
"Bil ki, Allahdan başqa ibadətə layiq olan heç bir məbud yoxdur"
www.tovhid.info

# ƏHLİ-SÜNNƏTİN ETİQADI

**Müəllif:**
İmam Əbu Bəkr Əhməd ibn İbrahim əl-İsməili
(vəfatı: hicri 371-ci il)

**Tərcümə və qeydlər:**
Əbu Zeyd Həbibli
**Redaktə:**
Fərhad Adayev

# Tərcüməçinin müqəddiməsi

Aləmlərin Rəbbi olan Allaha həmd olsun! Ona həmd edir, Ondan yardım istəyir, Onun məğfirətini diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Ona sığınırıq. Allah kimi doğru yola yönəltsə, onu azdıra biləcək, kimi də azdırsa, onu doğru yola yönəldəcək kəs yoxdur. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq olan haqq məbud yoxdur. O, təkdir və şəriksizdir. Yenə şahidlik edirəm ki, Muhəmməd Allahın qulu və son elçisidir. Allahın ona, əhlinə və əshabına salavatı və salamı olsun!

Sizə təqdim etdiyimiz bu kitab hicrətin üç və dördüncü əsrlərində yaşamış əhli-sünnət alimlərindən olan imam Əbu Bəkr əl-İsməilinin qələmə aldığı "Etiqadu əhlis-sünnə", yəni "Əhli-sünnətin etiqadı" – adlı kiçik həcmli risalənin tərcüməsidir. Kitabın həcmi kiçik olsa da, faydası çox olan, önəmli əqidə mətnlərindən sayılır. Yaşadığımız zamanda, həmçinin yaşadığımız ölkədə bidət və zəlalət əhlinin çoxluğunu nəzərə alsaq, oxucuları sələfi etiqadı özündə əks etdirən bu növ kitablarlarla tanış etməyin önəmini anlamış olarıq. Ümumiyyətlə, hər bir müsəlman İslam dinini, onun əhkamlarını və etiqad əsaslarını düzgün mənbələrdən və sağlam əllərdən götürməyə həris olmalıdır. Çünki bu elm bizim dinimizdir, dinimizi kimlərdən götürdüyümüzə diqqət etməliyik.

***Kitabda gördüyümüz işlər:***

• Həcminin kiçik, müəllifinin isə təxmini on əsr bundan qabaq yaşadığını nəzərə alaraq, təkcə kitabın tərcüməsi ilə kifayətlənmədik, həmçinin kitabı orta səviyyəli bir şəkildə təhqiq etdik. Çünki müəllif kitabda ərz etdiyi mövzuları müxtəsər şəkildə qeyd etmişdir. Bu da bəzi hallarda müəllifin qəsdinin tam anlaşılmamasına səbəb olur. Məlumdur ki, bu, müəllifin yaşadığı dönəmdə qələmə alınmış bir çox etiqad kitabının xüsusiyyətidir, lakin bu hal günümüzün əksər oxucusu üçün münasib olmaya bilər. Kitabın təhqiqi zamanı şərhə ehtiyac duymayan mövzuların Quran və sünnətdən dəlillərini zikr etməklə kifayətləndik, şərhə ehtiyacı olan yerlərdə isə orta həcmli

izah verməyə çalışdıq. Bununla belə, hər bir məsələni ətraflı bir şəkildə izah etdiyimizi və bu təhqiq işinin haqqını layiqincə verdiyimizi düşünmürük. Sadəcə olaraq, "su olmayan yerdə təyəmmüm edərlər" – deyərək bu işi öz öhdəmizə götürdük.

• Kitabın tərcüməsi zamanı "əl-Fəth" (Şarja, BƏƏ) mətbəəsinin h.1416 / m.1995-ci il və "İbn Həzm" mətbəəsinin h.1420 / m.1999-cu ildə çap etdikləri nüsxələrə əsaslandıq. Lakin abzasları özümüzün uyğun gördüyümüz bir şəkildə rəqəmlədik. Mətnin asan anlaşılması üçün abzaslar arası başlıqlar əlavə etdik və kitabın mətninə daxil olmadığı üçün onları mötərizə içində qeyd etdik.

• Həmçinin müqəddimə daxilində müəllifin tərcümeyi-halı və əqidəsi barədə, həmçinin kitab haqda qısa məlumat verdik.

Hər bir halda, bu kitabın tərcüməsi və təhqiqi bir bəşər əməyinin məhsuludur. Bəşər övladı isə xəta edəndir. Xətadan uzaq olan isə yalnız Allahın kəlamıdır. Uca Allahdan bu işimizdə bizi haqqa və ixlasa yönəltməsini və bu əməlimizi Öz qatında məqbul olan saleh əməllərdən etməsini diləyirik!

***Müəllifin tərcümeyi-halı:***[1]

Əbu Bəkr Əhməd ibn İbrahim ibn İsmayıl əl-Curcəni əl-İsməili ən xeyirli üçüncü əsrin sonlarına yaxın – hicrətin 277-ci ilində dünyaya gəlmişdir. Kiçik yaşlarından etibarən hədis elmi ilə yaxından maraqlanmağa və hədis yazmağa başlamışdır. Hədis imamlarından Peyğəmbərin ﷺ hədislərini dinləmək və hifz etmək üçün Xorasan, Bağdad, Küfə, Bəsrə və Məkkə kimi bir çox şəhərlərə səfər etmişdir. Şafii imamlarından hesab olunur. Hicrətin 371-ci ilində 94 yaşında vəfat etmişdir.

Hakim onun haqqında belə deyir: "Əl-İsməili öz zamanında hədis əhlinin və fəqihlərin şeyxi idi".

Zəhəbi onu imam, hafiz, fəqih və şeyxülislam kimi vəsflərlə yad etmişdir.

[1] "Siyər ələmin-nubələ" 16/292-296, "Təzkiratul-huffaz" 3/947-949.

İbn Kəsir, Sabuni, İbn Qudamə və digər bir çox alim onu doğru-düzgün etiqad sahibi bir imam kimi vəsf etmişdir.[1]

***Kitab haqda məlumat:***

Kitab bir neçə adla məşhurlaşmış və çap edilmişdir. Onlardan “Etiqadu Əhlis-sünnə” (əhli-sünnətin etiqadı), “Etiqadu əimməti əhlil-hədis” (hədis imamlarının etiqadı), “Etiqad əl-İsməili” (əl-İsməilinin etiqadı) kimi adları qeyd etmək olar.

Ümumiyyətlə, kitabın imam əl-İsməiliyə nisbətində heç bir şübhə olmadığına görə bu barədə geniş yazmağı məsləhət bilmədik.

Kitab ilk dəfə h.1416 / m.1995-ci ildə dr. Muhəmməd əl-Xumeyyisin təhqiqi ilə çap edilmişdir.

Kitab səsli olaraq bir çox alim tərəfindən şərh edilsə də, yazılı formada kitabın hər hansı bir şərhinə rast gəlmədik.

*   *   *

[1] “Əl-Bidəyə vən-Nihəyə” 11/298, “Əqidətus-sələf və əshabil-Hədis” s.27, “Zəmmut-təvil” s.21.

# Mərhəmətli və Rəhimli Allahın adı ilə

## [Hədis əhlinin etiqad əsasları]

Bilin ki, Allah sizlərə də, bizə də rəhm etsin, hədis əhlinin, yəni əhli-sünnət vəl-camaatın etiqad əsasları aşağıdakılardır:

**1.** Allaha, mələklərinə, kitablarına və rəsullarına iman etmək.[1]

**2.** Uca Allahın kitabında qeyd olunan və Peyğəmbərdən ﷺ səhih olaraq rəvayət olunan hər bir şeyi, ondan üz çevirmədən və onu rədd etmədən, olduğu kimi qəbul etmək. Belə ki, müxalif olduqları təqdirdə, onlar başlarına gələ biləcək fitnədən və şiddətli əzabdan çəkindirilərək, kitab və sünnətə tabe olmağa əmr olunublar.[2] Bu tabeçilik əmrində onların hidayəti üçün zəmanət, Peyğəmbərlərinin ﷺ onları məhz doğru yola yönəltməsinə dair şəhadət vardır.[3]

## [Allahın ad və sifətlərinin isbatı]

**3.** Onlar etiqad edirlər ki, Uca Allah gözəl adlar ilə adlandırılmış,[4] Özü-Özünü və Peyğəmbərinin ﷺ Onu adlandırdığı və vəsf etdiyi sifətlər ilə də vəsf edilmişdir. Belə ki, O, Adəmi Öz Əli ilə yaratdı.[5] Onun necəliyinə etiqad etmədiyimiz hər iki Əli də açıqdır və istədiyi kimi əta edir.[6] Allah (Azzə və Cəllə) necəliyini

---

[1] *“Möminlərin hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər”.* (Əl-Bəqərə: 285)

[2] *“Qoy onun əmrinə qarşı çıxanlar başlarına bir bəla gəlməsindən, yaxud özlərinə şiddətli bir əzab üz verməsindən qorxsunlar.”* (Ən-Nur: 63)

[3] *“Həqiqətən, sən onları doğru yola yönəldirsən”.* (Əş-Şura: 52)

[4] *“Ən gözəl adlar Allaha məxsusdur”.* (Əl-Əraf: 180)

[5] *“Allah dedi: "Ey İblis! İki əlimlə yaratdığıma (Adəmə) səcdə etməyə sənə mane olan nə oldu?”* (Sad: 75)

[6] *“Əksinə, Onun hər iki Əli də açıqdır və O Öz lütfündən istədiyi kimi əta edir”.* (Əl-Məidə: 64)

bilmədiyimiz bir şəkildə ərşə yüksəlmişdir.[1] Uca Allah xəbər verərək bildirmişdir ki, O, ərşin fövqünə yüksəlmişdir. Lakin ərşə yüksəlməsinin necəliyi barədə bir şey qeyd etməmişdir.[2]

**4.** O, yaratdıqlarının Sahibidir. Onları onlara möhtac olduğuna görə və ya onların yaradılışını zəruri edən başqa hər hansı bir səbəbə görə xəlq etməyib. Lakin O, istədiyini edən və istədiyi

---

[1] Burada müəllifin sözünün əsli belədir: "وأنه عز وجل استوى على العرش بلا كيف" Hərfi tərcümədə imamın sözü bu cür də anlaşıla bilər: “Allah (Azzə və Cəllə) <u>“necə”siz</u> ərşə yüksəlmişdir”.
Biz isə "بلا كيف "– ibarəsini “necəliyini bilmədiyimiz bir şəkildə” – kimi tərcümə etdik. Çünki sələf alimlərinin dilində "بلا كيف "– ibarəsinin iki mənası vardır ki, hər iki məna da bizim tərcümə etdiyimiz mənaya dəlalət edir:
Birincisi: "بلا كيف "– (“necə”siz): yəni "بلا سؤال: كيفَ ؟"– (“necə?” sualını vermədən). Yəni Uca Allahın ad və sifətlərinə iman etmək və bu sifətlərin necəliyi barədə sual verməmək. Bu mənaya dəlalət edən sələf sözləri sayıla bilməyəcək qədər çoxdur. Məsələn, imam Tirmizi “əs-Sünən” (2/41) əsərində Uca Allahın Əl, Enmək və digər sifətləri barədə belə demişdir: “Bütün bunlara iman edilər və necəliyi barədə soruşulmaz (ولا يُقَال: كَيْفَ)”.
İkincisi: "بلا كيف"– (“necə”siz): yəni "بلا اعتقاد كيفٍ، بلا معرفة كيفٍ"– (necəliyini bilmədən, necəliyinə etiqad etmədən). Yəni Uca Allahın necəliyini bilmədiyimiz və ya necəliyinə etiqad etmədiyimiz, yaxud necəliyini vəsf etmədiyimiz Əl, Üz, Görmək, Eşitmək, Kəlam, Nüzul (Enmək), İstiva (Ucalmaq) və digər sifətləri vardır. Sələfin bu mənaya dəlalət edən sözləri də çoxdur. Onlardan biri elə imam əl-İsmailinin öz sözüdür. İmam yuxarıda qeyd etdiyimiz sözün davamında belə deyir: “Allah (Azzə və Cəllə) necəliyini bilmədiyimiz bir şəkildə ərşə yüksəlmişdir. Uca Allah xəbər verərək bildirmişdir ki, O, ərşin fövqünə yüksəlmişdir. <u>Lakin, ərşə yüksəlməsinin necəliyi barədə bir şey qeyd etməmişdir.</u>” (Ərəbcədə: "ولم يذكُر كيف كان استواؤه"). Yəni, əslində, Uca Allahın Ərşə yüksəlməsinin bir keyfiyyəti (necəliyi) var, lakin biz bunu bilmirik və bilmədiyimiz üçün də onu vəsf edə və onun necəliyinə etiqad edə bilmərik. Bütün bunlar bəşər ağlının fövqündə duran şeylərdir. Çünki Uca Allah və Onun Rəsulu ﷺ bu barədə heç bir şey bildirməmişlər. Bu deyilənlər və imam əl-İsmailinin yuxarıda qeyd etdiyimiz sözü Allahın ad və sifətlərini hiyləli bir üslub ilə inkar və ya təvil etmək istəyən “təfvid” əhlinə gözəl bir cavabdır.
[2] *“Göyləri və yeri altı gündə yaradan, sonra Ərşə ucalan Odur”.* (Əl-Hədid: 4)

hökmü verəndir. O, etdiklərindən dolayı sorğuya çəkilməz, Onun qulları isə etdikləri hər bir şeyə görə cavabdehdirlər.[1]

**5.** O, gözəl adlar ilə adlandırılmış, Özünün Özünü və Peyğəmbərinin ﷺ Onu adlandırdığı və vəsf etdiyi sifətlər ilə də vəsf edilmişdir. Göylərdə və yerdə onun üçün imkansız olan heç bir şey yoxdur.[2] O özündə hər hansı bir naqislik, qüsur və xələl ehtiva edən sifətlər ilə vəsf edilməz. Allah (Azzə və Cəllə) bu cür naqis sifətlərdən uzaq və Ucadır.

**6.** Onun necəliyini bilmədiyimiz hər iki Əli də açıqdır və Öz lütfündən istədiyi kimi əta edir. Belə ki, Uca Allahın kitabında əlinin necəliyi barədə bir şey qeyd olunmamışdır. Onun barədə orqan, əza, uzunluq, enlilik, qalınlıq və ya naziklik[3] kimi bəşərə xas olan hər hansı bir xüsusiyyətə etiqad edilməz. Onun heç bir bənzəri yoxdur.[4] İzzət və kərəm sahibi olan Rəbbimizin Üzü nə qədər də mübarəkdir!

---

[1] *"Allah etdiklərindən soruşulmaz, onlar isə soruşulacaqlar".* (Əl-Ənbiya: 23)

[2] *"Göylərdə və yerdə Allahı aciz qoyacaq və Onun üçün imkansız olan heç bir şey yoxdur".* (Fatır: 44)

[3] Allah barədə bu cür ifadələrdən çəkinmək daha yaxşıdır. Çünki belə ibarələr Quran və sünnətdə varid olmamışdır. Əhli-sünnət Uca Allahın Özü barədə və Peyğəmbərinin ﷺ də Onu barədə isbat etdiyi sifətləri isbat, inkar (nəfy) etdiklərini isə inkar edirlər. Quran və sünnətdə nə isbat, nə də inkar yönündən varid olmayan ibarələr barəsində isə susurlar: nə isbat, nə də inkar edirlər. Misal olaraq: Əhli-sünnət *"Və Allah Musa ilə sözlə danışdı"* (Ən-Nisə: 164) – ayəsinə əsasən Allahın kəlam sifətini isbat edir, *"Onu nə mürgü, nə də yuxu tutar"* (Əl-Bəqərə: 255) – ayəsinə əsasən Allah barədə yatmaq və mürgüləmək kimi naqis sifətləri inkar (nəfy) edirlər. Lakin "Allah cismdir ya yox?" kimi suallar qarşısında isə susur, Quran və sünnətdə varid olmayan bu cür ibarələri təfsilata getmədən və bu sualı verənin muradını bilmədən Allah barədə nə isbat, nə də inkar edirlər. Çünki bu cür ibarələr onu dilə gətirənin qəsdindən asılı olaraq mənfi ya da müsbət mənaya gələ bilər. Sual verəndən qəsdini dəqiqləşdirəndən sonra bu məna ya isbat edilir, ya da inkar, lakin ləfz barədə yenə susulur.

[4] *"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir".* (Əş-Şura: 11)

***Fayda:*** Ayənin *"Onun heç bir bənzəri yoxdur"* – qismi Allahı məxluqatına bənzədən mücəssimə firqəsinə, *"O, Eşidəndir, Görəndir"*– hissəsi isə Onun ad və sifətlərini inkar edən muattilə firqəsinə gözəl bir cavabdır.

**7.** Onlar mötəzilə, xəvariclər və digər zəlalət əhli olan firqələrin dedikləri kimi: "Allahın adları Allahdan qeyrisidir və məxluqdur"[1] – demirlər.

**8.** Onlar isbat edirlər ki, Onun Üzü, eşitmək, görmək, elm və qüdrət, kəlam, güc və izzət kimi sifətləri vardır. Lakin onlar bütün bu sifətləri mötəzilə və digər zəlalət əhlinin etiqad etdikləri kimi deyil, məhz Uca Allahın dediyi kimi qəbul edirlər.
Belə ki, Uca Allah buyurur:

• *"Rəbbinin Üzü əbədidir".*[2]
• *"O, Quranı Öz elmi ilə nazil etmişdir".*[3]
• *"Onlar Onun elmindən Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər".*[4]
• *"İzzət bütünlüklə ancaq Allaha məxsusdur".*[5]
• *"Biz göyü qüdrətlə yaratdıq".*[6]
• *"Məgər onları yaradan Allahın onlardan daha qüvvətli olduğunu görmürdülərmi?"*[7]
• *"Həqiqətən, Allah ruzi verəndir, qüvvət sahibidir, Mətindir".*[8]

---

[1] Bu batil əqidənin təməlini qoyan cəhmiyyə firqəsi olmuşdur. Daha sonra xəvariclər, mötəzilə və şiələr bu məsələdə onlara tabe olmuşlar. Onlara görə, Allahın kəlamı məxluq olduğu kimi, Onun adları da məxluqdur. Sanki onlar Allahın adlarını Onun zatından kənar, ayrı-ayrı varlıqlar kimi qəbul edir və onlardan bəziləri: "Kim Allahın həqiqi mənada doxsan doqquz adının olduğuna etiqad edərsə, ayrı-ayrılıqda doxsan doqquz ilahın varlığını qəbul etmiş sayılar" – deyirlər.
[2] Ər-Rahmən: 27
[3] Ən-Nisə: 166
[4] Əl-Bəqərə: 255
[5] Fatır: 10
[6] Əz-Zəriyat: 47
[7] Fussilət: 15
[8] Əz-Zəriyat: 58

Uca Allah elm, güc, qüdrət sahibidir. Eşidən və görəndir. Kəlam sifətinə malikdir. Uca Allah belə buyurur:

- *“Gözüm önündə yetişdiriləsən deyə...”*[1]
- *“Gözlərimizin önündə və vəhyimiz üzərə gəmini düzəlt!”*[2]
- *“...Ona aman ver ki, Allahın kəlamını eşitsin”.*[3]
- *“Və Allah Musa ilə sözlə danışdı”.*[4]
- *“Biz bir şeyi yaratmaq istədikdə, ona ancaq: "Ol!"– deyirik, o da olur”.*[5]

## [Allahın iradəsi və elmi]

**9.** Onlar bütün müsəlmanların dedikləri kimi: “Allahın istədiyi olur, istəmədiyi isə olmur” – deyirlər. Necə ki, bu barədə Uca Allah belə buyurur: *“Allah istəmədikcə, siz də istəyə bilməzsiniz”.*[6]
*bilməzsiniz”.*[6]

**10.** Onlar belə deyirlər: “Heç kəs Allahın elmindən kənarda qala bilməz.[7] Heç kimin əməli və iradə gücü Allahın iradəsinə qalib gələ bilməz. Heç kəs Allahın elmini dəyişə bilməz. Çünki O heç bir səhvi və heç bir elmi naqisliyi olmayan Alim və məğlubedilməz Qadirdir”.

---

[1] Ta-hə: 39
[2] Hud: 37
[3] Tövbə: 6
[4] Ən-Nisə: 164
[5] Ən-Nəhl: 40
[6] Əl-İnsan: 30
[7] *“...Allahın hər şeyə qadir olduğunu və Allahın hər şeyi elmi ilə əhatə etdiyini biləsiniz”.* (Ət-Talaq: 12)

## [Quran Allahın kəlamıdır]

**11.** Onlar belə deyirlər: “Quran Allahın kəlamıdır və məxluq deyildir. Onu oxuyanın tələffüzü, onun hafizələrdə əzbər qalması, dillərdə oxunması və vərəqlər üzərində yazılması onu məxluq etməz.[1]

Kim Quran qiraətinin məxluq olduğunu iddia edib, bununla da oxuyanın qiraətini deyil də, məhz Quranın özünü nəzərdə tutarsa,

[1] İmam əl-İsməili bu sözü ilə Quranın Allahın kəlamı olduğunu inkar edən cəhmiyyə firqəsinə cavab verir. Belə ki, onlar Allahın həqiqi bir şəkildə danışdığını inkar etmiş və demişlər ki, Allahın kəlam sifəti yoxdur. Uca Allah rəsullarından kiməsə xitab etmək istədikdə, xitab etmək istədiyi kəlamı yaradır və onu o elçisinə eşitdirir və nəticədə “Allahın kəlamı” dediyimiz məfhum Onun yaratdığı bir məxluq olur. Həmin yaradılmış kəlamın Allaha nisbət edilərək “Allahın kəlamı” adlandırılması isə məcazi mənadadır və məscidlərə “Allahın evi”, Salehin ﷺ dəvəsinə “Allahın dəvəsi” deyildiyi kimi, bu yaradılmış kəlama da “Allahın kəlamı” deyilir. Məscidlər həqiqi mənada Allahın evi olmadığı kimi, sonradan yaradılmış bu kəlam da həqiqi mənada Allahın kəlamı sayılmaz. Bu fikri ilk dəfə Cəhm ibn Səfvan və Cəd ibn Dirhəm kimi zəlalət imamları ortaya atmış və daha sonra isə bu zəlalət və bidətlərində mötəzilə və şiələr onlara tabe olmuşlar.

***Əhli-sünnətin mövqeyi:*** Allahın kəlamı Onun şəninə layiq, həqiqi bir sifətdir. O, istədiyi zaman, istədiyi formada, hərf və səslə danışır. Uca Allah buyurur: *“Musa təyin etdiyimiz vaxtda gəlib, Rəbbi onunla danışınca...”* (Əl-Əraf: 143). *“Allah Musa ilə sözlə danışdı”* (Ən-Nisə: 164). Ümumiyyətlə, kəlam sifəti ilə vəsf edilmək kamillik, əksi isə naqislik sifətlərindən sayılır. Belə ki, Uca Allah müşriklərin ilahlarının batil olduğunu isbat etməkdən ötrü onların danışa bilmədiklərini, kəlam sifətindən yoxsul olduqlarını dəlil olaraq qeyd edir və belə buyurur: *“Musanın qövmü onun ardından zinət əşyalarından böyürən bir buzov heykəlini (ilah) etdilər. Onlar onun özləriylə danışmadığını, onlara bir yol da göstərə bilmədiyini görmədilərmi?”* (Əl-Əraf: 148). *“İbrahim dedi: “Xeyr, bunu o bütlərin böyüyü etmiş olar. Əgər danışa bilirlərsə, özlərindən soruşun”... Sonra yenə öz bildikləri batil əqidələrinə qayıdıb dedilər: “Axı sən bilirsən ki, bunlar danışmırlar”.”* (Əl-Ənbiya: 63 və 65) Elə bu səbəbdən bəzi alimlər Allahın kəlam sifətini inkar edən bidətçiləri bu yöndən bütlərə ibadət edən və öz məbudlarının danışmaqdan aciz olduqlarını iqrar edən müşriklərə bənzətmişdir.

artıq bu sözü ilə o, Quranın məxluq (yaradılmış) olduğunu demiş olar”.[1]

## [Məxluqatın əməllərini yaradan Allahdır]

**12.** Onlar deyirlər ki, həqiqətdə, Allahdan başqa heç bir yaradan yoxdur. Bəndələrin bütün əməlləri Allahın yaratdıqlarıdır. Allah istədiyini doğru yola yönəldir və istədiyini də haqq yoldan azdırır. Allahın azdırdığı kəsin heç bir üzrü və Allaha qarşı heç bir bəhanəsi və dəlili də yoxdur. Necə ki, bu barədə Uca Allah belə buyurur:

• *“De: Tutarlı dəlillər yalnız Allaha məxsusdur. Əgər O istəsəydi, sizin hamınızı doğru yola yönəldərdi”.*[2]

• *“Sizi ilk dəfə yaratdığı kimi diriləcəksiniz. Allah Öz bəndələrinin bir qismini doğru yola yönəltdi, bir qisminə isə haqq yoldan azmaq layiq görüldü”.*[3]

• *“Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq”.*[4]

• *“Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Kitabda (Lövhü-Məhfuzda) olmasın”.* [5] Bu ayədə qeyd edilən ﴿نَّبۡرَأَهَآ﴾

---

[1] Quran qiraətinin məxluq adlandırılmasının icazəli olub-olmamasında əhli-sünnət alimləri ixtilaf etmişlər. Bu məsələdə ən gözəl üslub, ümumiyyətlə, bu mövzuya baş vurmamaq və bu cür çoxmənalı söz və ifadələrdən uzaq durmaqdır. Hər bir halda, kimsə Quran qiraətinin məxluq olduğunu desə və bununla da kəlamın özünü yox, məhz qarinin qiraətini nəzərdə tutsa, bu sözü ilə o, Quranın məxluq olduğunu demiş sayılmaz.

*Xülasə:* Quran Allahın kəlamıdır. Ondan gəlmiş və Ona da dönəcəkdir. Məxluq deyildir. İnsanların Qurani-Kərimi oxuyub, səhifələr üzərində yazmaqları onu Allahın kəlamı olmaqdan çıxarmaz. Çünki ləfzi və mənası ilə onu kəlam olaraq söyləyən Allahdır. Bəndələr isə Quranı oxuduqları təqdirdə, öz səsləri ilə oxumuş olurlar. Yəni Quranı oxuyan kəsin qiraətində eşidilən kəlam Allahın sözüdür, oxuyanın sözü deyildir. Onu oxuyan şəxs isə onu yaradılmış olan səsi ilə oxumuş olur.

[2] Əl-Ənam: 149

[3] Əl-Əraf: 29-30

[4] Əl-Əraf: 179

[5] Əl-Hədid: 22

kəlməsi, ərəb dilçiliyində, heç bir ixtilaf olmadan: *“Bizim onları yaratmağımız”* – mənasını verir.

• Uca Allah Cənnət əhli barədə xəbər verərək belə demişdir: *“Bizi buna qovuşduran Allaha həmd olsun! Əgər Allah bizə hidayət verməsəydi, biz özümüz doğru yola yönələ bilməzdik”.*[1]

• *“Əgər Allah istəsəydi, bütün insanları doğru yola yönəldərdi”.*[2]

• *“Əgər Rəbbin istəsəydi, insanları vahid bir ümmət edərdi. Rəbbinin rəhm etdiyi şəxslərdən başqa, onlar hələ də ixtilafdadırlar”.*[3]

**[Xeyir və şər Allahın qədəri ilədir]**

**13.** Onlar deyirlər ki, insanın həyatında baş verən xeyir-şər, acı-şirin, hər bir şey Allahın qədəri ilə olur. Allah bunları təyin etmiş və tamamlamışdır.[4] Bəndələri Allahın istədiyindən başqa özlərinə nə bir zərər, nə də bir fayda verə bilməzlər. Onlar daima Ona möhtacdırlar.

**[Allahın enmək sifəti]**

**14.** Peyğəmbərdən etibarlı yollar ilə nəql olunan hədislərə əsasən, Allah (Azzə və Cəllə) necəliyini bilmədiyimiz bir şəkildə yer üzü səmasına enir.[5]

---

[1] Əl-Əraf: 43

[2] Ər-Rəd: 31

[3] Hud: 118

[4] *“Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Kitabda (Lövhü-Məhfuzda) olmasın.”* (Əl-Hədid: 22)

[5] *“Rəbbimiz hər gecənin son üçdə birində yer üzü səmasına enər və qullarına bu bu cür xitab edər: «Mənə dua edənin duasını qəbul edərəm, Məndən istəyənin istəyinə cavab verərəm, bağışlanma diləyəni isə bağışlayaram».”* (Buxari: 1145, Müslim: 758)

## [Axirət həyatında möminlərin Allahı görməsi]

**15.** Onlar dünyada deyil, məhz Axirət həyatında müttəqi bəndələr tərəfindən Allahın görülməsinin mümkünlüyünə və bunun onlar üçün bir Axirət mükafatı olaraq mütləq baş verəcəyinə etiqad edirlər. Bu barədə Uca Allah buyurur: *"O gün neçə-neçə üzlər nurlanacaq və öz Rəbbinə baxacaqdır"*.[1]

Həmçinin, kafirlər barədə belə demişdir: *"Xeyr, o gün onlarla Rəbbi arasına pərdə çəkiləcək!"*[2] Əgər möminlərin və kafirlərin hamısı Allahı görməyəcəklərsə, o zaman onların hamısı ilə Allah arasında pərdə çəkilməsi lazım olardı.[3]

Allahın görüləcəyinə iman etmək, Onun cism olmadığına və hər hansı bir hədlə məhdudlaşmadığına etiqad etmək şərti ilə olmalıdır.[4] Möminlər Allahı (Azzə və Cəllə) necəliyi bizə bəlli olmayan bir şəkildə, Onun istəyinə bağlı olaraq öz gözləri ilə görəcəklər.

## [İman və küfr məfhumu]

**16.** Onlar imanın sözdən, əməldən və Allahı tanımaqdan ibarət olduğunu deyirlər. İman itaətlə artar və asiliklə azalar. Kimin saleh əməlləri çox olarsa, o, itaət baxımından özündən aşağı olan kəsdən, imanda daha üstün olar.[5]

---

[1] Əl-Qiyamə: 22-23
[2] Əl-Mutaffifin: 15
[3] Yəni ayədə Qiyamət günü Allahla məhz kafirlər arasında pərdə çəkiləcəyindən bəhs edilir. Bu da, kafirlərin Onu görməyəcəklərinə, möminlərin isə Onu görəcəklərinə dair açıq bir dəlildir.
[4] Yeddinci səhifənin haşiyəsində dördüncü qeydə bax!
[5] İmam əl-İsməili bu sözü ilə əməlin imandan olmadığını iddia edən, imanın artıb-azalmasını inkar edən murciə firqəsinə cavab verir. Uca Allah buyurur: *"Möminlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbi qorxuya düşər, Onun ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edərlər."* (Əl-Ənfəl: 2)

**17.** Həmçinin belə deyirlər: “Müsəlmanların qibləsinə üz tutub namaz qılan və tövhid əhli olan hər bir şəxs, tövhid üzərə olduğu və Allah tərəfindən ona fərz edilən, ona vacib buyurulan şeyləri iqrar etdiyi təqdirdə, kiçik və ya böyük, bir və ya bir çox günaha mübtəla olsa belə, kafir sayılmaz”. Onlar həmin şəxsin Allah tərəfindən əfv ediləcəyinə ümid edirlər; *“Allah şirkdən başqa digər günahları istədiyi kimsəyə bağışlayar”.*[1]

**18.** Həmçinin onlar heç bir üzrü olmadan vaxtı çıxana qədər fərz namazını bilərəkdən tərk edən kəsin hökmü barədə ixtilaf etmişlər. Onlardan bir qismi Peyğəmbərin ﷺ *“bəndə ilə küfr arasında namazı tərk etmək durur”*[2], *“kim namazı tərk edərsə, küfr etmiş olar və beləcə, Allahın himayəsi onun üzərindən götürülər”*[3] – hədislərini əsas tutaraq belə bir şəxsi kafir hesab etmişlər.

Digər qismi isə, bu hədislərə yozumlu yanaşaraq demişlər ki, burada məqsəd namazın vacibliyini inkar edərək tərk etməkdir. Necə ki, Yusuf عليه السلام demişdir: *“Mən Allaha iman etməyən bir qövmün dinini tərk etdim”.*[4] Bu ayədə “tərk etmək” – “inkar etmək” mənasındadır.[5]

---

[1] Ən-Nisə: 48

[2] Əbu Davud: 4678, Tirmizi: 2620, İbn Məcə: 1078, hədis səhihdir. Bax: Əlbani, “Səhih ət-tərğib və ət-tərhib” 1/298.

[3] Hədis oxşar bir ləfzlə imam Əhmədin Müsnədində (22075-ci hədis) və digər mənbələrdə mövcuddur. Öz-özlüyündə hədisin sənədi zəif olsa da, şahidləri ilə birlikdə etibarlıdır. (Bax: İbn Həcər, “Ət-Təlxisul-həbir” 2/148; Əlbani, “Əl-İrva” 2026.)

[4] Yusuf: 37

[5] Məlumdur ki, Yusuf عليه السلام heç vaxt qövmünün dinində olmayıb. Deməli, *“Mən Allaha iman etməyən bir qövmün dinini tərk etdim”* dedikdə, “onların dinlərini inkar etdim” mənası nəzərdə tutulur. Beləcə, bu ayədə “tərk etmək” - “inkar etmək” mənasında olduğu kimi, *“kim namazı tərk edərsə, kafir olar”* – mənasında olan hədislərdə də, “namazı tərk etmək” deyildikdə, “onu inkar etmək” mənası nəzərdə tutulur.

## [İman və İslam məfhumları arasında fərqin olub-olmaması]

**19.** Onlardan bir qismi belə demişdir: "İman söz və əməldir. İslam isə insanın boynunda vacib olan əməlləri yerinə yetirməsidir. Əgər bu iki ləfzdən hər biri ayrı-ayrı kəlmə olaraq, birlikdə qeyd edilsə, bu zaman mömin və müsəlman ləfzlərinin hər birinin özünə xas, bir-birindən fərqli mənaları olar. Yox, əgər o iki kəlmədən yalnız biri qeyd edilsə, o zaman digər kəlmənin də mənasını özündə ehtiva edər".[1]

**20.** Onların bir çoxu isə belə demişdir: "İslam və iman kəlmələri eyni mənanı ifadə edir. Uca Allah belə buyurur: *"Kim İslamdan başqa bir din axtararsa, o din heç vaxt ondan qəbul olunmaz".*[2] Əgər iman islamdan başqa bir məna ifadə etsəydi, o zaman o da qəbul olunmamalı idi.[3] Digər ayədə isə belə deyilir: *"Biz orada olan möminləri o kənddən çıxartdıq. Amma orada bir evdən başqa müsəlman tapmadıq".*"[4]

---

[1] Məşhur "Cəbrayıl" hədisində qeyd edildiyi kimi. Belə ki, Cəbrayl ﷺ ilk öncə Peyğəmbərdən ﷺ iman, daha sonra isə islam barədə soruşmuşdur. Beləcə, bu iki kəlmənin eyni yox, fərqli mənalara gəldiyi aydın olmuş olur. Əgər iman ilə islam eyni mənaları ifadə etsəydi, Cəbrayl ﷺ onları bir-birindən ayırmazdı. Peyğəmbər ﷺ isə sualların cavabında imanı Allaha, mələklərinə, kitablarına, peyğəmbərlərinə, qədərə və axirətə iman kimi qəlbə bağlı batini əməllər olaraq; islamı isə şəhadət kəlməsi, namaz, oruc, zəkat və həcc kimi əzalara bağlı zahiri əməllər olaraq vəsf etmiş və beləcə, iman ilə islam məfhumunu bir-birindən ayırmışdır. Təbii ki, bu fərqlilik iman və islam ləfzlərinin bir yerdə qeyd edilməsi halına aiddir. Ayrı-ayrılıqda qeyd edildiyi təqdirdə, iman islam, islam isə iman mənasını özündə ehtiva edir. Çünki imansız islam, islamsız isə iman təsəvvür edilə bilməz.

[2] Əli İmran: 85

[3] Çünki Uca Allah ayədə İslamdan başqa heç bir şeyi qəbul etməyəcəyini qeyd edir. Əgər iman islamdan başqa bir şey olsaydı, o zaman o da qəbul olunmazdı. Halbuki həqiqət bunun tam əksidir və bu da, dəlildir ki, iman islamdan ayrı bir şey deyil, elə islamın özüdür.

[4] Əz-Zəriyət: 35-36. Bu ayədə Uca Allah mömin ləfzi ilə müsəlman ləfzini eyni mənada qeyd etmişdir.

**21.** Onlardan bəziləri isə İslamın “Allaha təslimçilik göstərib, Ona boyun əymək və iman etdiyi hökmlərinə qarşı bağlılıq göstərmək” mənasına gəldiyini qeyd etmişdir. Necə ki, bu barədə Uca Allah belə buyurur: *“Bədəvi ərəblər: "Biz iman gətirdik!"– dedilər. De: "Siz qəlbən iman gətirmədiniz! "Biz müsəlman olduq!"– deyin. İman sizin qəlblərinizə hələ daxil olmamışdır”.*[1]

Həmçinin belə demişdir: *“Onlar müsəlman olduqlarına görə sənə minnət qoyurlar. De: "Müsəlman olmusunuz deyə mənə minnət qoymayın! Əksinə, Allah sizi imana gətirməklə öz minnətini sizin boynunuza qoymuşdur".”*[2] Bu ayə də həmçinin iman və islam məfhumlarının eyni olduğunu deyənlərin dəlillərindəndir.

---

[1] Əl-Hucurat: 14
[2] Əl-Hucurat: 17

## [Axirət ilə əlaqəli bəzi məsələlər]

**22.** Onlar belə deyirlər: “Həqiqətən, Allah şəfaət edənlərin şəfaəti səbəbi ilə tövhid əhlindən bir dəstəni Cəhənnəm odundan çıxaracaq. Belə ki, şəfaət haqdır”.

**23.** Hovuz haqdır.[1]

**24.** Mizan (tərəzi) haqdır.[2]

**25.** Haqq-hesab haqdır.[3]

---

[1] *“Hər bir peyğəmbərin Qiyamət günü hovuzu olacaq və onların hər biri hansının hovuzuna daha çox adam gələcək deyə, öyünəcəkdir. Mən ümid edirəm ki, hovuzuna ən çox adam gələcək olan məhz mən olacam”.* (Tirmizi: 2443, Əlbani hədisin səhih olduğunu qeyd etmişdir).
*“Hovuzumun böyüklüyü Əylə ilə Ədən şəhərləri arasındakı məsafə qədərdir. Nəfsim Əlində olan Allaha and olsun ki, onun qədəhlərinin sayı ulduzların sayından çoxdur. Süddən daha ağ, baldan daha şirindir...”* (İbn Məcə: 4302, Əlbani hədisin səhih olduğunu qeyd etmişdir).

[2] İmam əl-İsməili bu sözü ilə tərəzini inkar edən və “tərəziyə Allahın yox, bazar əhlinin ehtiyacı var” – deyən cəhmiyyə firqəsinə cavab verir. Əhli-sünnət Qiyamət günü insanların pis və yaxşı əməllərinin çəkilməsi üçün haqq-ədalət tərəzisinin qurulacağına iman edir. Bu, Allahın buna ehtiyacı olduğuna görə deyil, məhz insanların özlərinin öz əməllərinə qarşı şahid tutulması üçündür. Bu, Uca Allahın ədalətinin kamilliyindəndir. Mizanın haqq olduğuna dəlalət edən bir çox hədis mövcuddur. Onlardan birində Peyğəmbər ﷺ belə demişdir: *“Tərəzidə gözəl əxlaqdan daha ağır gələn başqa bir şey olmayacaqdır”.* (Tirmizi: 2003, Əlbani hədisin səhih olduğunu qeyd etmişdir). İbn Abbas ؓ demişdir: *“Tərəzinin bir dili və iki gözü olacaq. Bir gözünə saleh əməllər, digərinə isə asiliklər qoyulacaq”* (“Şuabul-iman” 1/443).

[3] *“Sizlərdən elə bir kəs olmayacaq ki, Rəbbi onunla aralarında heç bir tərcüməçi olmadan danışmasın. Sağına baxacaq, öz əməllərindən başqa bir şey görməyəcək; sonra soluna baxacaq, öz əməllərindən başqa bir şey görməyəcək; daha sonra önünə baxacaq və Cəhənnəmlə üzbəüz gələcək. Sizlərdən kim özünü yarım xurma ilə də olsa Cəhənnəmdən qurtara bilərsə, qoy eləsin!”* (İbn Məcə: 185, Əlbani hədisin səhih olduğunu qeyd etmişdir).

## [Bir kəsin Cənnətlik və ya Cəhənnəmlik olduğuna dair şahidlik etməkdən uzaq durmaq]

**26.** Onlar İslam millətindən, müsəlmanlardan hər hansı bir kəsin Cənnətlik və ya Cəhənnəmlik olduğunu təyin etmirlər. Çünki belə bir şeyi bilmək onların elmindən kənar bir məsələdir. Həmçinin onlar həmin şəxsin hansı hal üzərində – islam, yoxsa küfr üzərində – dünyasını dəyişəcəyini də bilə bilməzlər. Onlar, sadəcə olaraq, belə deyərlər: "Kim böyük günahlardan, asiliklərdən uzaq duraraq, İslam üzərində dünyasını dəyişərsə, o, Cənnət əhlindən sayılar". Uca Allahın bu ayəsinə əsasən: *"Şübhəsiz ki, iman gətirib yaxşı işlər görənlər* –ayədə onların günah əhli olduqları qeyd olunmur– *məxluqların ən xeyirliləridirlər. Onların Rəbbinin yanındakı mükafatı Ədn bağlarıdır".*[1]

**27.** Onlar Peyğəmbərə ﷺ tabe olaraq və onun sözünü təsdiq edərək, səhih, etibarlı yollar ilə bizə gəlib çatmış hədislərə əsasən, Peyğəmbər ﷺ tərəfindən Cənnətlik olduğu təyin edilmiş şəxslərin Cənnətlik olduqlarına dair şahidlik edərlər.[2]

## [Qəbir əzabı və sorğu-sualı]

**28.** Onlar qəbir əzabının haqq olduğunu deyirlər. Allah istəsə, bu əzaba layiq olan kəsi bu əzab ilə cəzalandırar və istəsə, onu bağışlayıb əfv edər.

• Uca Allah belə buyurur: *"Onları səhər və axşam oda salırlar. O Saat (Qiyamət günü) gələcəyi vaxt: "Firon camaatını ən şiddətli əzaba salın!" – deyilər".*[3] Deməli, bu ayə Qiyamət qopanacan onların qəbirdə məhz səhər və axşam əzaba düçar olacaqlarını,

---

[1] Əl-Beyyinə: 7-8

[2] Misal olaraq Peyğəmbərin ﷺ bu hədisini qeyd etmək olar: *"Əbu Bəkr Cənnətdədir, Ömər Cənnətdədir, Osman Cənnətdədir, Əli Cənnətdədir, Talha Cənnətdədir, Zubeyr Cənnətdədir, Əbdürrəhman ibn Auf Cənnətdədir, Səd Cənnətdədir, Səid Cənnətdədir, Əbu Ubeydə ibn əl-Cərrah Cənnətdədir".* (Tirmizi: 3747, Əlbani hədisin səhih olduğunu qeyd etmişdir).

[3] Ğafir: 46

Qiyamət günü isə onların daha da şiddətli bir əzaba məruz qalacaqlarını bəyan edir.[1]

• Digər ayədə isə belə deyilir: *"Kim Mənim Zikrimdən üz döndərsə, onun üçün sıxıntılı həyat olacaq..."*[2] Yəni Qiyamət qopmamışdan öncə. Çünki Uca Allah ayənin davamında belə buyurur: *"...və Biz Qiyamət günü onu kor olaraq hüzurumuza gətirdəcəyik"*. Beləcə, bəlli olur ki, ayənin əvvəlində qeyd edilən "sıxıntılı həyat" məhz Qiyamət günündən öncəki həyatdır. Çünki biz bu dünyada rifah və bolluq içində yaşayan yəhudilərin, xristianların və müşriklərin olduğunu bilir və müşahidə edirik. Bununla da bizə aydın olur ki, ayədə qeyd edilən "sıxıntılı həyat" sözündə məqsəd dünya həyatındakı ruzi darlığı və yaşam sıxıntısı deyildir. Çünki biz ruzi baxımından bolluq içində olan müşrikləri görürük. Deməli, "sıxıntılı həyat"-dakı məqsəd ölümdən sonrakı və Qiyamət günündən əvvəlki həyatdır.[3]

**29.** Həmçinin Peyğəmbərdən ﷺ rəvayət olunmuş hədislərə, Uca Allahın *"Allah iman gətirənləri dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar. Allah zalımları azdırar. Allah istədiyini edər"*[4] – ayəsinə və bu ayənin təfsiri ilə əlaqədar

---

[1] Bu ayə qəbir əzabını isbat edən əsas dəlillərdən sayılır. Belə ki, Uca Allah ayənin əvvəlində *"Onları səhər və axşam oda salırlar"* – buyurur. İlk oxunuşdan bu əzabın Firon və onun kafir qövmünə məhz Qiyamət günü, Cəhənnəmdə veriləcək əzab olduğu zənn edilir. Lakin ayənin davamını oxuduqda bu əzabın Cəhənnəm əzabı yox, məhz Qiyamət günündən əvvəl onlara verilən əzab olduğu bəlli olur. Uca Allah ayənin davamında buyurur: *" Qiyamət günü gələcəyi vaxt; "Firon camaatını ən şiddətli əzaba salın!" – deyilər"*. (Ğafir: 46) Qiyamət günündən əvvəl, qəbir əzabından başqa bir əzab növünün olmadığını nəzərə alsaq, bu əzabın qəbir əzabı olduğunu anlayarıq.

[2] Ta-hə: 124

[3] Abdullah ibn Məsud və Əbu Hureyrə ؓ Peyğəmbərin ﷺ bu ayədə qeyd edilən sıxıntılı həyatın qəbir əzabı olduğunu dediyini rəvayət etmişlər. (Bax: "Səhih İbn Hibbən" 3119, Təbərani "əl-Mucəm əl-kəbir" 9143)

[4] İbrahim: 27

Peyğəmbərdən ﷺ rəvayət olunan xəbərlərə əsasən,[1] Münkər və Nəkir adlı mələklərin sorğu-sualına da iman edərlər.[2]

## [Dini münaqişə və mübahisələri tərk etmək]

**30.** Onlar Quran barədə[3] və digər etiqadi məsələlərdə münaqişə və mübahisələrin tərk olunmasını vacib sayırlar. Belə ki, Uca Allah buyurur: *“Allahın ayələri barəsində yalnız kafirlər mübahisə edərlər”.*[4] Yəni o ayələri yalan hesab edərək mübahisə edərlər. Doğrusunu Allah bilir.

## [Səhabələr ﷺ barədə etiqad əsasları]

**31.** Peyğəmbərdən ﷺ sonra Əbu Bəkrin ﷺ xəlifəliyini səhabələrin onu xəlifə seçmələrinə əsasən isbat edirlər.[5] Ondan sonra Ömərin

---

[1] Peyğəmbər ﷺ bu ayənin təfsirində demişdir: *“Müsəlman qəbirdə sorğu-sual edildikdə, Allahın tək və haqq məbud olduğuna, Məhəmmədin isə Onun elçisi olduğuna şəhadət edəcəkdir. Uca Allahın qeyd etdiyi kimi; “Allah iman gətirənləri dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar”* (Buxari: 4699).

[2] Peyğəmbər ﷺ demişdir: *“Cənazə qəbirə qoyulduqda onun yanına birinin adı Münkər, digərinin isə Nəkir olan özləri qara, gözləri isə göy olan iki mələk gələr...”* (Tirmizi: 1071, Əlbani hədisin həsən-səhih olduğunu demişdir)

[3] Peyğəmbər ﷺ demişdir: *“Quran yeddi hərf (ləhcə) üzərində nazil olmuşdur. Quran barədə mübahisə etmək küfrdür. Bunu üç dəfə təkrar etdi. Ondan bildiyiniz şeylərə əməl edin, bilmədiyiniz şeyləri isə bilənlərə həvalə edin!”* (Müsnəd: 7976, Əhməd Şəkir hədisin isnadının səhih olduğunu qeyd etmişdir).

[4] Ğafir: 4

[5] Alimlər Əbu Bəkrin ﷺ xilafətinin Peyğəmbər ﷺ tərəfindən təyin edilməsi və ya seçim yolu ilə olması yönündə ixtilaf etmişlər. Həsən əl-Bəsri və hədis əhlindən bəzi alimlər onun xilafətinin məhz Peyğəmbər ﷺ tərəfindən təyin edildiyini bildirmişlər. (Bax: İbn Əbil-İzz, “Şərhul-Əqidə ət-Tahaviyyə” 2/712.)

***Peyğəmbərin ﷺ Əbu Bəkrin ﷺ xilafətinə dair etdiyi işarələr:***

• Peyğəmbər ﷺ xəstələndikdə belə demişdir: *“Əbu Bəkrə deyin camaata namaz qıldırsın”.* (Buxari: 678)

• Aişə anamız deyir: *“Peyğəmbər ﷺ xəstələndiyi zaman mənə dedi: "Əbu Bəkri və qardaşını mənim yanıma çağır ki, bir yazı yazım. Mən qorxuram ki, kimsə, iştahlı birisi “mən daha layiqəm” – desin. Lakin Allah və möminlər Əbu Bəkrdən başqasını istəməzlər".”* (Müslim: 2387)

ؓ xəlifəliyini Əbu Bəkrin ؓ onu özündən sonra xəlifə təyin etməsinə əsasən isbat edirlər.[1] Ondan sonra Osmanın ؓ xəlifəliyini Ömərin ؓ əmri ilə təyin edilmiş şura əhlinin və digər müsəlmanların onun xilafəti üzərində ittifaq etmələri səbəbi ilə isbat edirlər.[2] Ondan sonra Əlinin ؓ xəlifəliyini Bədr əhlindən olan Ammar ibn Yasir ؓ və Səhl ibn Hənifin ؓ[3] və bu məsələdə onlara tabe olan digər səhabələrin ona beyət etmələri, həmçinin onun İslamı ilk qəbul edənlərdən olması və fəziləti səbəbi ilə isbat edirlər.

---

• Cubeyr ibn Mutimin ؓ belə dediyi rəvayət olunur: *“Bir qadın Peyğəmbərin ﷺ yanına gəlmişdi. Qadın gəldiyi yerə qayıdarkən Peyğəmbər ﷺ onun yanına bir daha gəlməsini tapşırdı. Qadın soruşdu: "Gəldiyim zaman səni tapmasam, –sanki qadın onun ölümünü nəzərdə tuturdu– kimə müraciət edim?" Peyğəmbər ﷺ buyurdu: "Əgər məni tapmasan, Əbu Bəkrə müraciət edərsən".”* (Buxari: 3659)

• Huzeyfə ibn Yəmən ؓ Peyğəmbərin ﷺ belə dediyini rəvayət edir: *“Məndən sonra iki şəxsə: Əbu Bəkr və Ömərə tabe olun!”* (Tirmizi: 3662, İbn Məcə: 97, Əlbani hədisin səhih olduğunu demişdir)

[1] Əbu Bəkr ؓ özündən sonra xilafətə Öməri ؓ layiq görürdü. Elə buna görə də rəsmi şəkildə bu işi Ömərə təhvil verdi. Ömər ؓ xəlifəliyə gəldi və onun hakimiyyəti on il davam etdi. Demək olar ki, bu xilafət dövrü Peyğəmbərin ﷺ və Əbu Bəkrin ؓ dövründən sonra İslamın ən gözəl çağları idi.

[2] Ömərə ؓ xəsarət yetiriləndə o, xilafəti altı nəfərə həvalə etdi. Onlar: Osman ibn Əffan, Əli ibn Əbu Talib, Talha ibn Ubeydullah, Zubeyr ibn əl-Əvvam, Əbdürrəhman ibn Auf və Səd ibn Əbu Vaqqas *(Allah onların hamısından razı olsun)* idilər. Adları çəkilən səhabələr bir yerə toplaşıb məşvərət etdilər. Əbdürrəhman ؓ dedi: “Gəlin aramızdan üç nəfər bu işi istədiyinə həvalə etsin”. Zubeyr ؓ dedi: “Mən yerimi Əliyə ؓ verirəm”. Talha ؓ dedi: “Mən də yerimi Osmana ؓ verirəm”. Səd ؓ dedi: “Mən isə yerimi Əbdürrəhman ibn Aufə ؓ verirəm”. Beləliklə, üç nəfər işi digərinə həvalə etdi və şurada üç nəfər: Osman ibn Əffan, Əli ibn Əbu Talib və Əbdürrəhman ibn Auf qaldı. Daha sonra Əbrürrəhman ibn Auf da öz namizədliyini geri götürdü və üç gün ərzində mühacir və ənsarların hamısının evlərini gəzərək onlardan kimin xəlifə olması haqda soruşurdu. Əbdürrəhmanın belə dediyi rəvayət olunur: “Allaha and olsun ki, mühacir və ənsarların evlərini bir-bir gəzərək bu haqda onlardan soruşmuşam. Onlar Osman ؓ olan yerdə başqasını məsləhət görmədilər”. (Buxari: 3700, 7207)

[3] Bir çox rəvayətlərə əsasən Əliyə ؓ ilk beyət edən Ammar ibn Yasir ؓ və Səhl ibn Hənif ؓ olmuşdur.

**32.** Onlar səhabələrin ﷺ ümmətin ən fəzilətliləri olduğunu deyirlər. Çünki Uca Allah onlar barədə belə demişdir: *"Möminlər ağac altında sənə beyət edərkən Allah onlardan razı qaldı".*[1]
*"Dində hamını ötüb keçmiş mühacirlərə və ənsarlara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır".*[2]
Allahın özlərindən razı qaldığını bəyan etdiyi kimsələrin daha sonra Onun qəzəbinə səbəb olacaq bir hala düşmələri qeyri-mümkündür.[3] Səhabələrdən sonra gələcək nəsillərin Onun rızasına layiq ola bilmələri isə məhz "yaxşı işlər görmək" şərtinə bağlanmışdır.[4] Elə isə, səhabələrdən sonra gələcək nəsillərdən hər kim onları gözdən salmağa çalışsa, yaxşı iş görmüş sayılmaz və beləcə, bu şərti pozduğuna görə Uca Allahın rizasından məhrum olar.

**33.** Səhabələrin ﷺ Allah qatında olan fəzilət və dəyərləri hər kimin qəzəbinə səbəb olarsa, həmin şəxsin pis aqibəti üçün əndişə edilər. Çünki Uca Allah bu barədə belə demişdir: "*Muhəmməd Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar (səhabələr) isə..."* Ayənin davamında isə belə buyurur: *"İncildə isə onlar (yəni, səhabələr) elə bir əkinə bənzədilirlər ki, o artıq cücərtisini üzə çıxarmış, onu bəsləyib cana-qüvvətə gətirmiş, o cücərti də möhkəmlənib gövdəsi*

---

[1] Əl-Fəth: 18
[2] Ət-Tövbə: 100
[3] Çünki Allah gələcəkdə baş verəcək hər bir şeydən xəbərdardır və Ona gizlin qalacaq heç bir şey yoxdur. Elə isə, gələcəkdə Onun qəzəbinə layiq olacaq kəs barədə "Mən artıq ondan razıyam" – deməsi qeyri-mümkündür və bu Onun elminə naqislik nisbət etməkdir. Uca Allah bütün naqisliklərdən münəzzəhdir.
[4] ***Bu ayədə səhabələrin fəzilətinə dəlalət edən digər iki nüans:***
• Uca Allah səhabələrdən sonra gələcək nəsillərin Onun rızasına layiq ola bilmələrini şərtə bağladığı halda, mühacir və ənsarlardan razı olduğunu qeyri-şərtsiz bir şəkildə bəyan etmişdir.
• Ayədə səhabələrə tabeçiliyin vacib olduğuna dair açıq bir işarə, dəlil mövcuddur.

*üstünə qalxaraq əkinçiləri heyran qoymuşdur. (Allahın bu bənzətmələri) kafirləri qəzəbləndirmək üçündür."* [1]
Uca Allah bu ayədə səhabələri kafirlər üçün bir qəzəb mənbəyi etdiyini xəbər verir.

**34.** Onlar Uca Allahın *"Allah* <u>*sizlərdən*</u> *iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, ..."* – ayəsinə əsasən, səhabələrin ﷺ xilafətə layiq olduqlarını deyirlər. Uca Allah bu ayədə Peyğəmbər

---

[1] Əl-Fəth: 29.
***Ayənin tam şəkli belədir:*** *"Muhəmməd Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar (səhabələr) kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları (namaz vaxtı) rüku edən, səcdəyə qapanan, Allahdan riza və lütf diləyən görərsən. Onların əlaməti üzlərində olan səcdə izidir. Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkinə bənzədilirlər ki, o artıq cücərtisini üzə çıxarmış, onu bəsləyib cana-qüvvətə gətirmiş, o da (o cücərti də) möhkəmlənib gövdəsi üstünə qalxaraq əkinçiləri heyran qoymuşdur. (Allahın bu bənzətmələri) kafirləri qəzəbləndirmək üçündür. Onlardan iman gətirib yaxşı əməllər edənlərə Allah məğfirət (günahlardan bağışlanma) və böyük mükafat (Cənnət) vəd buyurmuşdur!"*
***Səhabələrin bu ayədə qeyd edilən əzəmətli vəsflərinə diqqət yetirin:***
**1.** Peyğəmbərlə ﷺ birlikdə olmaları və ona qarşı olan sevgiləri.
**2.** Kafirlərə qarşı son dərəcə şiddətli olmaları.
**3.** Öz aralarında bir-birinə qarşı olan hörmət və məhəbbətləri. Bu ayə "səhabələrin bir-birinə qarşı düşmənçilikləri olub" iddiasına gözəl bir cavabdır.
**4.** Allahın onları daima "rüku edən" və "səcdəyə qapanan" kimi əzəmətli vəsflərlə vəsfləndirməsi.
**5.** Daima Allahın riza və lütfünü diləmələri.
**6.** Allahın səhabələri onlar heç yaradılmamışdan öncə bizdən əvvəlki kitablarda: Tövrat və İncildə xeyirlə yad etməsi.
**7.** Allahın səhabələr vasitəsi ilə daima kafirləri qəzəbləndirməsi. Deməli, səhabələrin fəziləti barədə qeyd olunan ayə və hədislər yalnız və yalnız kafirlərin qəzəbinə və qısqanclığına səbəb ola bilər. İmam Məlik məhz bu ayəyə əsasən səhabələri söyənlərin küfrünə hökm vermişdir. (Bax: "Təfsirul-Qurtubi" 16/297.)
**8.** Allahın onları iman əhli kimi vəsf edib, qəlblərindəki yəqini imana şəhadət verməsi. Uca Allahın bu şəhadətindən daha böyük nə şahidlik ola bilər?!
**9.** Allahın onların zahirlərinə də şəhadət verməsi və onları "saleh əməllərin sahibləri" kimi gözəl vəsflə yad etməsi.
**10.** Allahın onlara məğfirət və Cənnət vəd etməsi.

ﷺ ilə birgə və onun dini üzərində olanlara[1] “*sizlərdən*” ibarəsi ilə xitab edərək ayənin davamında belə buyurur: *“... özlərindən əvvəlkiləri varislər etdiyi kimi, onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu əmin-amanlıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç bir şeyi Mənə şərik qoşmurlar”.*[2]

Həqiqətən də, Uca Allah Öz dinini Əbu Bəkr, Ömər və Osmanla ﷽ qüvvətləndirdi. Allahın vədinin təzahürü olaraq, onlar tam bir arxayınçılıq içində, düşmənlərin deyil, onların düşmən üzərinə hücum çəkəcəkləri və məhz onların düşmənlərin qəlblərinə qorxu salacaqları bir hala gəldilər.

**35.** Allah (Azzə və Cəllə) döyüşdə[3] Peyğəmbərdən ﷺ geri qalan kəslərə belə dedi: *“Əgər Allah səni onlardan bir zümrənin yanına göndərsə və onlar döyüşə çıxmaq üçün səndən izin istəsələr, onlara belə de: "Siz bir daha mənimlə döyüşə çıxmayacaq və mənimlə birlikdə heç bir düşmənlə vuruşmayacaqsınız. Çünki siz birinci dəfə evdə oturmağa razı oldunuz. Elə isə, arxada qalanlarla birlikdə siz də evdə oturun! "”*[4]

Onlar Peyğəmbər ﷺ ilə qarşılaşdıqda ondan döyüşdə iştirak etmələri üçün izin istədilər. Lakin Allahın Rəsulu ﷺ onlara izin vermədi və Uca Allah onlar barədə bu ayəni nazil etdi: *“Siz qənimətləri götürməyə getdiyiniz zaman savaşdan geri qalanlar: "Qoyun biz də sizin arxanızca gələk!" – deyəcəklər. Onlar Allahın sözünü dəyişdirmək istəyirlər. De: "Siz heç vaxt bizim arxamızca gəlməyəcəksiniz. Allah əvvəldən sizin üçün belə demişdir". Onlar:*

[1] Yəni səhabələrə.
[2] Ən-Nur: 55
[3] Hicrətin 9-cu ilində baş vermiş Təbuk döyüşü nəzərdə tutulur.
[4] Ət-Tövbə: 83

*"Xeyr, siz bizə həsəd aparırsınız"– deyəcəklər. Əksinə, onlar çox az anlayırlar."*[1]

Həmçinin belə buyurur: *"Geri qalan bədəvilərə de: "Siz çox qüvvətli bir tayfaya qarşı döyüşməyə çağırılacaqsınız. Siz ya onlarla döyüşəcəksiniz, ya da onlar müsəlman olacaqlar. Əgər itaət etsəniz, Allah sizə gözəl bir mükafat verər. Yox, əgər daha əvvəl üz döndərdiyiniz kimi üz döndərsəniz, O sizi şiddətli bir əzab ilə cəzalandırar"."*[2]

Deməli, Peyğəmbərin ﷺ zamanında sağ olan kəslər onunla savaşa qatılmaqdan geri qaldıqda onlara bu cür xitab edildi. Onlardan bəziləri Əbu Bəkr, Ömər və Osmanın ﵃ xilafətləri dönəmində sağ idi. Bu ayə ilə həmin kəslərin raşidi xəlifələrə itaət etmələri səbəbi ilə əcr və savaba, itaətsizlikləri səbəbi ilə də şiddətli əzaba məruz qalacaqları bəyan edilir. Bu isə, Allah (Azzə və Cəllə) tərəfindən onların gələcək xilafətlərinin bir müjdəçisi və xəbərçisi idi.[3] Uca Allah qəlblərimizdə onlardan heç birinə qarşı kin yaratmasın.

---

[1] Əl-Fəth: 15

[2] Əl-Fəth: 16

[3] Uca Allah Öz Rəsuluna ﷺ onlara belə deməyi əmr edir: *"Siz bir daha mənimlə döyüşə çıxmayacaq və mənimlə birlikdə heç bir düşmənlə vuruşmayacaqsınız"*. Deməli, bu ayədən belə bəlli olur ki, Fəth surəsi 16-cı ayədə qeyd edilən "*Siz çox qüvvətli bir tayfaya qarşı döyüşməyə çağırılacaqsınız"* – ibarəsindəki onları döyüşə çağıran kəs Peyğəmbər ﷺ olmayacaq, ondan sonra gələn kəslər olacaq. Həmin kəslər isə Əbu Bəkr, Ömər və Osmandır. Çünki məhz onların xilafəti dönəmində insanlar Fars, Rum imperiyalarına və digər kafir dəstələrinə qarşı savaşmağa çağırılmışdılar. Həmin kafir ordularından bəziləri ilə döyüş baş tutmuş, bəziləri isə savaşsız, öz xoşları ilə İslamı qəbul edib müsəlman olmuşdular. Uca Allah buna işarə edərək ayənin davamında belə buyurur: "*Siz ya onlarla döyüşəcəksiniz, ya da onlar müsəlman olacaqlar.*" Daha sonra Allah (Azzə və Cəllə) gələcəkdə onları bu döyüşlərə səsləyəcək rəhbərlərə itaət edəcəkləri təqdirdə, onlara əcr və mükafat verəcəyini vəd edərək buyurur: "*Əgər itaət etsəniz, Allah sizə gözəl bir mükafat verər*". İtaət etməyəcəkləri təqdirdə isə, onları şiddətli bir əzabla cəzalandıracaqdır: "*Yox, əgər daha əvvəl üz döndərdiyiniz kimi üz döndərsəniz, O sizi şiddətli bir əzab ilə cəzalandırar*". (Əl-Fəth: 16)

Onlardan birinin xilafətinin qanuniliyi isbat olundusa, onun ardınca dördünün də xilafəti öz yerini tapacaqdır.

**[Rəhbərlərə münasibət]**

**36.** Onlar yaxşı və ya pis hər bir müsəlman imamın (rəhbərin) arxasında cümə və digər namazları qılmağı icazəli görürlər.[1] Çünki Uca Allah cümə namazını mütləq bir şəkildə vacib buyurmuş və onun ədasını əmr etmişdir.[2] Halbuki Uca Allah bu imamlardan bəzilərinin fasiq və günahkar olacaqlarını bilirdi. Buna rəğmən, hər hansı bir halı və zamanı istisna etmədi.

**37.** Həmin rəhbərlər zalım olsalar belə, onlarla birlikdə kafirlərə qarşı savaşmağı – cihadı icazəli görürlər.[3]

[1] Çünki Peyğəmbərin ﷺ əshabı fasiq rəhbərlərin arxasında namaz qılardılar. Buna misal olaraq İbn Ömərin, Ənəs ibn Məlikin ﷺ zalım və fasiq olan Yusif ibn Həccacın arxasında namaz qılmalarını qeyd etmək olar. (İbn Əbi Şeybə "əl-Müsənnəf" 2/378) Həmçinin səhabə Abdullah ibn Məsud ﷺ şərab içməsi ilə tanınan Vəlid ibn Uqbənin arxasında namaz qılardı. (Müslim: 1707)

[2] *"Ey iman edənlər! Cümə günü namaza çağırıldığınız zaman Allahı yad etməyə tələsin və ticarəti dayandırın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!"* (Cümə: 9)

[3] İmam əl-İsməili bu sözü ilə "Mehdi zühur edənəcən heç bir rəhbərin bayrağı altında cihad yoxdur" – deyən rafizilərə cavab verir. Onların etiqadına görə, cihad məsum imamla və onun rəhbərliyi altında olmalıdır. Məsum gördükləri hal-hazırda sağ olduğuna inandıqları və təxmini on iki əsrdir yolunu gözlədikləri Mehdi "qeyb"də olduğuna görə, o, zühur edənə qədər cihad hökmünün aradan qalxdığına etiqad edirlər. Elə bu səbəbdən tarix boyunca şiələrin hər hansı bir kafir diyarını fəth etdiklərinə, yaxud müsəlmanların üzərinə hücum çəkən kafir ordularına qarşı savaşdıqlarına təsadüf olunmayıb. Bunun əksi isə tarixdə çox baş verib. Belə ki, onların dırnaqarası cihadları daima müsəlmanlara qarşı olmuşdur.

**38.** Onların islahı və adil olmaları üçün dua etməyi də icazəli görürlər.[1]

**39.** Silahla onlara qarşı çıxmağı – üsyan qaldırmağı icazəli görmürlər.[2]

**40.** Həmçinin fitnə zamanı savaşmağı da icazəli görmürlər.

---

[1] Rəhbərlərin islahı, onların doğru yolda yürüməları və hidayət üzərində olmaları üçün dua etmək əhli-sünnət alimlərinin yoludur. Çünki onların islahı cəmiyyətin islahı sayılır. Bu haqda sələfdən çoxsaylı əsərlər nəql olunmuş və bu, əhli-sünnətin əlamətlərindən və əqidə əsaslarından sayılmışdır. Bu da sələf alimlərinin müdrikliyinin və uzaqgörənliyinin açıq bir göstəricisidir. İmam Əhməd rəhbər üçün dua etmək barədə belə demişdir: "Mən gecə-gündüz onun üçün müvəffəqiyyət diləyir və Allahın ona kömək olması üçün dua edirəm və bu əməli özümə vacib bilirəm". (Xəlləl, "əs-Sünnə" 14)

[2] İbn Əbil-İzz demişdir: "Rəhbərlər zalım olsalar belə, onlara qarşı itaətkarlıqdan ayrılmamaq lazımdır. Çünki itaətdən əl çəkib onlara qarşı çıxmaqla ortaya çıxan fəsad onların zülmü səbəbi ilə ortaya çıxan fəsaddan qat-qat artıq olur. Onların zülmlərinə qarşı səbr etmək günahlar üçün kəffarə və əzəmətli əcr sayılır. Uca Allah o cür zalım rəhbərləri öz əməllərimizin cəzası olaraq bizim üzərimizə müsəllət edib. Necə deyərlər, insana verilən cəza onun əməlinin cinsindən olur. Bu səbəbdən də belə hallarda bizə vacib olan şey öz əməllərimizi islah edib, tövbə və istiğfarı çoxaltmaqdır. Belə ki, Uca Allah buyurur: *"Başınıza gələn hər bir müsibət öz əllərinizlə qazandığınız günahlar ucbatındandır. Hələ Allah çoxunu bağışlayır."* (Əş-Şura: 30) *"Siz onların başına ikiqat müsibət gətirmiş olduğunuz halda, başınıza bir müsibət gəldiyi zaman: "Bu haradan gəldi?"– söylədiniz. De ki: "Bu sizin özünüzdəndir!" Həqiqətən, Allah hər şeyə qadirdir"*(Əli İmran: 165) *"Sənə gələn hər yaxşılıq Allahdan, başına gələn hər bir bəla isə sənin özündəndir"* (Ən-Nisə: 79) *"Beləliklə, qazandıqları günahlara görə zalımların bir qismini digərinə rəhbər təyin edərik"* (Əl-Ənam: 129) Deməli, əgər camaat rəhbərin zülmündən öz canını qurtarmaq istəyirsə, gərək ilk növbədə özü öz nəfsinə zülm etməyi tərk etsin". ("Şərhul-Əqidə ət-Tahaviyyə" 2/578)

**41.** Həmçinin bağilərlə savaşda labüd olan şərtlərin ödəniləcəyi təqdirdə, adil rəhbər ilə birlikdə bağı – zalım dəstələrə qarşı savaşmağı icazəli sayırlar.[1]

## [İslam diyarı]

**42.** Ərazisində aşkar bir şəkildə namaza çağırıldığı[2], namaz qılındığı və əhalisi əmin-amanlıq içərisində bu ibadəti əda etdiyi müddətcə yaşadıqları diyarı İslam diyarı sayırlar, mötəzilə kimi kafir diyarı yox.[3]

## [Bəndə öz əməli ilə deyil, Allahın lütfü ilə Cənnəti qazanır]

**43.** Onlar belə etiqad edirlər ki, hər kəs necəliyindən asılı olmayaraq, Cənnəti öz əməli ilə deyil, məhz Allahın mərhəməti və

---

[1] Bağilər deyildikdə müsəlman rəhbərinə qarşı üsyan edən dəstələr nəzərdə tutulur. Bağilər ilə xəvariclərin arasında önəmli bir neçə fərq vardır. Bu səbəbdən rəhbərə qarşı üsyan edən hər dəstə xəvaric sayılmaz. Xəvariclər müsəlman toplumunun canını və malını halal görərək, həmçinin rəhbəri kafir hesab edərək ona qarşı üsyan edirlər. Bağilər isə müsəlman toplumunun canını və malını halal görməz, rəhbəri isə kafir hesab etməzlər. Lakin ictimai, siyasi, iqtisadi və digər səbəblərə görə ona qarşı üsyan qaldırarlar. Həmçinin bağilərdən fərqli olaraq, xəvariclərin özlərinə xas fikir və düşüncələri, əqidələri mövcuddur. Bu səbəbdən Əli ﷺ onunla savaşan Nəhrəvan əhli (xəvariclər) ilə Cəməl və Siffin əhli arasında fərq qoymuş, xəvariclərlə savaşdığına görə sevindiyi halda, Cəməl və Siffin hadisələrinə görə çox üzülmüşdür.

[2] Namaz üçün azanın verilməsini nəzərdə tutur.

[3] İmam Şövkəni demişdir: "Əgər yaşadıqları diyarda güc, iqtidar və ixtiyar müsəlmanların əlindədirsə və orada yaşayan kafirlər öz küfrlərini (küfr olan ayinlərini və.s.) müsəlmanların izni olmadan izhar edə bilmirlərsə, o zaman həmin diyar İslam diyarı sayılır. Orada küfr əlamətlərinin və ayinlərinin olması oranın İslam diyarı olmasına zərər verməz. Çünki həmin küfr ayinləri kafirlərin iqtidar və ixtiyarları ilə deyil, məhz müsəlmanların icazəsi ilə həyata keçir. Əgər güc və iqtidar kafirlərin əlində olarsa, o zaman həmin diyar kafir diyarı hesab edilər." ("Əs-Seylul-cərrar" 4/575)

lütfü ilə əldə edir.[1] Uca Allah isə öz rəhmətini və lütfünü istədiyi quluna əta edir. Əslində, bəndənin xeyir əmələ müvəffəq olması və itaətə yönəlməsi də Allahın lütfü sayəsində gerçəkləşir. Əgər Uca Allah bu xeyri quluna əta etməsəydi, heç kəs Rəbbi önündə təmizə çıxa bilməzdi. Necə ki, Uca Allah bu barədə belə buyurur:
• *"Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, sizdən heç kəs heç vaxt təmizə çıxmazdı. Lakin Allah istədiyini təmizə çıxardır".*[2]
• *"Əgər Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, az bir qisminiz istisna olmaqla, hamınız şeytana uyardınız".*[3]
• *"O Öz rəhmətini istədiyi quluna əta edir".*[4]

## [Əcəlin və ruzinin təyin edilməsi]

**44.** Onlar Allahın hər bir canlı məxluq üçün vaxtının gəlib çatacağı bir əcəl təyin etdiyini deyirlər. *"Onların əcəlinin çatdığı vaxt nə bircə saat yubanar, nə də tezləşə bilər".*[5]

Bəndənin ölməsi və ya öldürülməsi məhz onun üçün təyin edilmiş əcəl vaxtının gəlib yetişməsi ilə olur.[6] Allah (Azzə və Cəllə) belə buyurur: *"De: "Əgər siz evlərinizdə olsaydınız belə, öldürülməsi qabaqcadan təyin edilmiş kəslər yenə çıxıb öləcəkləri yerlərə gedərdilər"."*[7]

**45.** Uca Allah hər bir canlı məxluqa onun yaşamını təmin edən qida ruzisini əta edir. Bu ruzi Allahın məxluqatından yaşatmaq

---

[1] Burada müəllif "Bəndə Cənnəti məhz öz əməli ilə əldə edir, onun Cənnətə layiq bilinməsi Allah üzərində bir öhdəlikdir" – deyən mötəzilə firqəsinə cavab verir.
[2] Ən-Nur: 21
[3] Ən-Nisə: 83
[4] Əl-Bəqərə: 105, Əli İmran: 74
[5] Ən-Nəhl: 61
[6] Bu məsələdə mötəzilə firqəsi haqqa müxalif olmuşdur. Onlara görə, öldürülən insanın əcəli həmin qətl sayəsində tamamlanmış olur. Lakin əgər o öldürülməsəydi, onun üçün təyin olunmuş ilkin əcəlinə qədər yaşayacaqdı. Yəni sanki onun iki əcəli vardır.
[7] Əli İmran: 154

istədiyi kəslərə bəxş etdiyi həyat zəmanətidir. Onu halal və ya haram yol ilə ruziləndirən də Allahdır, həyatı üçün zəruri olandan əlavə digər nemətlər ilə ruziləndirən də.

## [Şeytanın yaradılması və sehr barədə qeyd]

**46.** Onlar etiqad edirlər ki, Uca Allah insana vəsvəsə verən və onu hər bir vəchlə aldadan şeytanları xəlq edib. Şeytan insana toxuna da bilər.[1]

**47.** Həqiqətən, bu dünyada sehr də, sehrbazlar da mövcuddur.[2] Sehr etmək Allahın izni olmadan onun fayda və ya zərər verə biləcəyinə etiqad edən kəs tərəfindən edilmiş bir küfrdür.[3]

## [Hədis əhlinin bəzi xüsusiyyətləri]

**48.** Onlar bidətlərdən, asiliklərdən, təkəbbürlükdən, özünü bəyənmək və özünü öyməkdən, xainlikdən, fitnəkarlıqdan və nəmmamlıqdan uzaq durmağı vacib sayarlar. Həmçinin başqalarına əziyyət verməməyi, öz bidətini izhar edən və bidətinə dəvət edən kəsdən başqa, heç kəsin qeybətini etməməyi də vacib görürlər.

---

[1] *“Sələm yeyənlər qəbirlərindən şeytan toxunub dəli eləmiş kimsənin qalxdığı kimi qalxarlar”.* (Əl-Bəqərə: 275)

[2] Mötəzilə və onlara tabe olan bəzi firqələr sehrin həqiqətini inkar etmişdir.

[3] *“... Lakin şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanı olanı insanlara öyrədərək kafir oldular. Mələklər: "Biz ancaq bir sınağıq, sən gəl kafir olma!"– deməmiş onu heç kəsə öyrətmirdilər. Yəhudilər ərlə arvadı bir-birindən ayıracaq işləri onlardan öyrənirdilər. Lakin onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər. Onlar özlərinə zərər verən, faydası olmayan şeyləri öyrənirdilər”.* (Əl-Bəqərə: 102)

Bidətini izhar edən və bidətinə dəvət edən kəs barədə danışmaq isə, onlara görə, qeybət sayılmaz.[1]

**49.** Onlar elmi öz mənbəsindən öyrənməyi, elm tələb etməyi, Quranı, Quran elmlərini və təfsirini öyrənməyi və bunun üçün ciddi cəhdlə çalışmağı, həmçinin Peyğəmbərin ﷺ hədislərini dinləməyi, onları tədvin etməyi və mənaları üzərində düşünüb-daşınmağı və onun əshabının əsərlərini (sözlərini) öyrənməyi vacib sayırlar.

**50.** Həmçinin səhabələri pisləməkdən və çirkin işləri onların üstünə yıxmaqdan uzaq durmağı vacib sayırlar. Onların arasında baş vermiş hadisələr barədə onları üzürlü görür və hallarını isə Allaha həvalə edirlər.[2]

**51.** Camaatla bir olmağı vacib görürlər.[3]

**52.** Yemək-içməkdə və geyim-keçimdə haramlardan uzaq durmağı; daima xeyir əməllərə can atmağı; yaxşılığı əmr edib, pisliklərdən çəkindirməyi; – haqqı bəyan etmək və bilmədiklərini onlara öyrətmək halı istisna – cahillərdən üz çevirməyi; haqqın

[1] İmam Sənani demişdir: “Altı şey qeybətdən sayılmaz:
– Zülmə məruz qalan kimsənin ona zülm edən kəs haqqında şikayət etməsi.
– Şəriətə zidd hərəkət edən kəsin müxalif əməlini aradan qaldıra biləcək kimsəyə həmin adamın halını xəbər verməsi.
– Hökm, fətva alarkən fətva ilə əlaqəli kəslər barədə qaziyə məlumat verməsi.
– Bidətini və ya asiliklərini açıq-aşkar edən kəslər barədə danışmaq.
– Hədis raviləri barədə danışmaq.
– İstehza etmək məqsədi ilə deyil, məhz kimliyini tanıtmaq qəsdi ilə kiminsə kor, çəpgöz və ya çolaq olduğunu demək.” (“Subulus-sələm” 4/193)

[2] *“Səhabələrdən sonra gələnlər belə deyirlər: "Ey Rəbbimiz! Bizi və iman gətirməkdə bizi qabaqlamış qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"* (Əl-Həşr: 10)

[3] Burada camaat deyildikdə haqq üzərində birləşən toplum nəzərdə tutulur ki, bu toplumun da ilki Peyğəmbərin ﷺ əshabı və daha sonra onlara tabe olan kəslərdir.

bəyanından və bəhanələrin aradan qaldırılmasından sonra isə onların əleyhinə çıxmağı və onları cəzalandırmağı vacib sayırlar.

**53.** Bütün bunlar dinin və məzhəbin əsli, əsası, hədis əhli imamlarının etiqadıdır. Hansılar ki, bidətlərlə ləkələnmədilər, fitnələrə alət olmadılar və dində xoşagəlməz hər bir vəziyyət qarşısında ağır və təmkinli davrandılar.
Hamılıqla Allahın ipindən möhkəm yapışın və ondan ayrılmayın!

Bilin ki, Uca Allah Öz Kitabında sevgisini və məğfirətini məhz Peyğəmbərinə ﷺ tabe olanlara aid etmiş, onları Cəhənnəmdən qurtulan firqə və özlərinə tabe olunan zümrə halına gətirmişdir. Allah (Azzə və Cəllə) Onu sevdiyini iddia edənlərə xitab edərək belə buyurur: *“De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın”.*[1]

Uca Allah bizi və sizləri elm ilə faydalandırsın, rəhməti və lütfü sayəsində, təqva səbəbi ilə bizləri azmaqdan və əyri yollara düşməkdən qorusun.

[1] Əli İmran: 31

## Mündəricat

Tərcüməçinin müqəddiməsi.......................................................3
Hədis əhlinin etiqad əsasları.......................................................6
Allahın ad və sifətlərinin isbatı...................................................6
Allahın iradəsi və elmi...............................................................10
Quran Allahın kəlamıdır............................................................11
Məxluqatın əməllərini yaradan Allahdır.....................................12
Xeyr və şər Allahın qədəri ilədir.................................................13
Allahın enmək sifəti...................................................................13
Axirət həyatında möminlərin Allahı görməsi...............................14
İman və küfr məfhumu...............................................................14
İman və İslam məfhumları arasında fərqin olub-olmaması...........16
Axirət ilə əlaqəli bəzi məsələlər..................................................18
Bir kəsin Cənnətlik və ya Cəhənnəmlik olduğuna dair şahidlik etməkdən uzaq durmaq...............................................................19
Qəbir əzabı və sorğu-sualı..........................................................19
Dini münaqişə və mübahisələri tərk etmək..................................21
Səhabələr ﷺ barədə etiqad əsasları...............................................21
Rəhbərlərə münasibət.................................................................27
İslam diyarı...............................................................................29
Bəndə öz əməli ilə deyil, Allahın lütfü ilə Cənnəti qazanır...........29
Əcəlin və ruzinin təyin edilməsi..................................................30
Şeytanın yaradılması və sehr barədə qeyd...................................31
Hədis əhlinin bəzi xüsusiyyətləri.................................................31
Mündəricat...............................................................................34